EASTERN PARTNERSHIP
Civil Society Forum

# Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu

# Azərbaycan Milli Platformasının

# *Üzvlük siyasəti*

***Bakı 2021***

1. **Umumi müddəalar**

1.1. Bu sənəd Avropa İttifaqı Sərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasına (bundan sonra Milli Platforma) üzvlərinə münasibətdə rəhbər tutduğu, prinsip və qaydaları əks etdirir.

1.2. Bu sənəd Avropa İttifaqı Sərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasının Nizamnaməsi, Avropa İttifaqı Sərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumunun Nizamnaməsinin və digər sənədlərinin üzvlərə münasibətdə siyasətinin əsas prinsip və qaydaları nəzərə alınmaqla hazırlanıb.

1.3. Üzvlük siyasəti Milli Platformanın Ümumi Yığıncağı tərəfindən qəbul edilib və təsisat olaraq Milli Platformanın, onun üzvləri, idarəetmə orqanları və digər struktur vahidləri üçün üzvlük siyasəti ilə bağlı rəhbər sənəddir.

1.4. Üzvlük siyasətinə yalnız Nizamnamədə nəzərdə tutulan qaydalara uyğun olaraq Ümumi Yığıncaq tərəfindən dəyişiklik edilə bilər

1.5. Hər bir Platforma üzvü Üzvlük siyasəti sənədi və üzvlük siyasəti ilə bağlı digər məsələlərlə bağlı Milli Platformanın idarəetmə orqanlarına, Ümumi Yığıncağa təklif irəli sürə bilər.

1.6. Üzvlük siyasəti səndələri ilə Nizamnamə arasında hər hansı ziddiyyət yarandığı zaman sonuncunun müddəaları əsas götürülür.

2. **Üzvlük siyasətinin əsas prinsipləri**

2.1. **Könüllülük** - Milli Platformaya üzvlük könüllüdür, hər bir təşkilatın sərbəst iradəsinə əsaslanır;

2.2. **Bərabərhüquqluluq** - Hər bir üzvün hüquqbərabərliyinə təminat verilir. Platformanın bütün üzvləri bərabər hüquqlara malikdirlər və bərabər vəzifələr daşıyırlar.

2.3. **İnklyuzivlik -** Hər üzv üçün Milli Platformanın bütün resursları, imkanları, üzvülüyün verdiyi hüquqlardan istifadə ilə bağlı heç bir ayrı-seçkilik qoyula, bunu nəzərdə tutan, ehtiva edilən qərar, təlimat və s. sənədlər qəbul oluna bilməz;

2.4. **Platforma üzvlərinin müstəqilliyi** - Milli Platformaya üzvlük və Platformada fəaliyyət hər bir təşkilatın öz mövqeyini sərbəst ifadə etmək, bununla bağlı qərar vermək iradəsinin mövcudluğna əsaslanır. Milli Platformanın məram və məqsədlərinin həyata keçirilməsinə, müstəqil fəaliyyətə mane olan, kölgə salan təşkilatlarda üzvlük, iştirak, təəssübkeşlik yolverilməz hal sayılır. Milli Platforma üzvləri dövlət və özəl sektorun, yerli özünüidarə orqanalarının, dini təşkilat, qurum və cərayanların, siyasi partiya və hərakatların təsirini mümkün edə, hər hansı formada asılılıq yaradacaq hallar və əlaqələrdən çəkinməlidirlər. Milli Platforma üzvləri dövlət və özəl sektordan, yerli özünüidarə orqanalarından, dini təşkilat, qurum və cərayanlardan, habelə siyasi partiya və hərakatlardan göstəriş ala bilməzlər.

2.5. **Pozulmuş hüquqlarına bərpasına təminat verilməsi.** Şikayətlərin qəbulu və baxılması prosedurları hər bir üzv üçün əlçatan olmalıdır. Şikayətlərə baxılması prosesində şikayətçinin şəxsən iştirakı təmin olunmalıdır.

2.6. **İnformasiya açıqlığının təmin edilməsi.** Platformanın bütün sənədləri, qərarları, qərarları ilə bağlı bütün informasiya açıq olmalıdır. Bunlar barədə məlumat almaq üçün üsullar və vasitələr əlçatan olmalıdır.

2.7. **Fəal üzvlük siyasətinin həyata keçirilməsi.** Platformanın üzvləri və idarəetmə orqanları fəal üzvlük siyasəti, yüksək işgüzarlıq dəyərlərini təşviq edir və bölüşürlər. Üzvlər Platformanın fəaliyyətində fəal iştirak edir, onun dinamik və ahəngdar fəaliyyəti üçün səy göstərirlər. Üzürsüz səbəbdən passiv fəaliyyəti, laqeyd münasibəti (Platformadaxili kommunikasiyada iştirak edilməməsi, Platforma adaından sənədlərin qəbulu zamanı üzrsüz səbəbdən ardıclı şəkildə müzakirələrə qatılmamaq və hər hansı münasibət göstərilməməsi, idarəetmə orqanlarının qərarlarının icra etməkdən yayınma, Ümumi yığıncaqda iştirak edilməməsi, Platformanın tədbirlərində və müzakirələrdə üzürsüz səbəbdəb ardıcıl şəkildə iştirak edilməməsi) yolverilməz sayır və intizam tənbehi üçün əsas hesab edirlər. Platformanın İdarəetmə orqanları fəal üzvlük siyasətini təmin edən, təşviq edən sənədlər hazırlayır, instituisonal və idarəetmə qərarları həyata keçirirlər.

**3. Milli Platformaya üzvlük**

3.1. Milli Platforma üzvlük açıqdır. MP-nin məram və dəyərlərini bölüşən ictimai Birlik, Fond, qeyri-kommersiya təşkilatı, kİV, peşəkar assosasiyalar, həmkarlar ittifaqları Milli Platformaya üzv ola bilər. Üzv təşkilatlar dövlət və özəl sektorun, yerli idarəetmə orqanalarının, dini təşkilat, qurum və cərəyanların, siyasi partiya və hərakatların təsirindən azad olmalıdırlar.

3.2. Dövlət və bələdiyyə qurumları, yerli idatrəetmə orqanları, siyasi partiya və hərakatlar, dini qurumlar və onların yaratdıqları təşkilatlar Milli Platformaya üzv ola bilməzlər.

3.3. Dövlət və bələdiyyə qurumlarının və onların yaratdıqları təşkilatların rəhbərləri və idarəetmə orqanının üzvləri, dövlət və bələdiyyə qulluqçuları, siyasi partiya və hərakat, dini qurumların rəhbərliyində olan şəxslər Milli Platformanın idarəetmə orqanlarında təmsil oluna bilməz.

3.4. Öz aralarında, habelə dövlət və bələdiyyə qurumlarının, onların yaratdıqları təşkilatların rəhbərləri ilə, siyasi partiya və hərakat, dini qurumların rəhbərliyində təmsil olunan şəxslərlərlə yaxın qohumluq münasibətində olan şəxslər Milli Platformanın idarəetmə orqanlarında təmsil oluna bilməz.

3.5. Azərbaycandan kənarda yaşayan şəxslər Milli Platformada üzv təşkilatlatların təmsilçisi ola bilməzlər.

3.6. Milli Platformaya üzv olmaq istəyən təşkilatlar Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun illik yığıncağında iştirak üçün

Forumun Katibliyi tərəfindən elan verildikdən sonra müvafiq ərizə ilə Foruma müraciət edirlər. Ərizələrə Forum tərəfindən qəbul edilmiş qaydalar əsasında baxılır və yeni üzvlər seçilir. Bu zaman Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Nizamnaməsində üzvlərin seçilməsi ilə bağlı nəzərdə tutulan prinsiplər və qaydalar nəzərə alınır. Ərizəsi müsbət qiymətləndirilmiş və Forumun illik yığıncağında iştirakı təsdiqlənmiş təşkilatların təmsilçisi 2 il müddətinə Forumun illik yığıncağında Milli Platformanın Nümayəndəsi statusunu əldə edir, təşkilat isə Milli Platformaya üzv qəbul edilir.

Milli Platforma Əlaqələndirici Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna seçkilərə iki həftə qalmış Foruma nümayəndələrin seçilməsi ilə bağlı qaydaları Azərbaycan dilində və zəruri izahlarla Platforma üzvləri arasında yayılmaısını təmin edir.

**4. Milli Platforma üzvlərinin fəal üzvlük siyasətinə sadiqliyi**

4.1. Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna nümayəndə seçilən şəxslər üzv təşkilatlar tərəfindən yalnız Platformanın və Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Nizamnaməsi, Etik Davranış Kodeksi və digər daxili sənədlərinin tələblərini pozduğu halda, bu barədə müvafiq qərar qəbul olunduqdan sonra geri çağırıla bilər.

4.2. Platformaya üzv təşkilatlar Milli Platforma ilə kommunikasiyanı həyata keçirəcək məsul şəxslər müəyyənləşdirməli və bu barədə İdarə Heyətini yazılı şəkildə məlumatlandırmalıdırlar. Bu şəxslərin müvəqqəti və daimi əvəzlənməsi barədə yazılı məlumat verilməlidir. Təşkilatın adı, ünvanı, rəhbəri, hüquqi vəziyyəti dəyişdiyi halda 3 (üç) gündən gec olmayaraq Əlaqələndiricini yazılı şəkildə məlumatlandırmalıdırlar.

4.3. Üzv təşkilatlar Platformanın Ümumi Yığıncağında iştirak edəcək üzvü barədə məlumatı Ümumi Yığıncağın keçiriləcəyi tarixə 7 (yeddi) gün qalana qədər İdarə Heyətinə yazılı şəkildə təqdim etməlidirlər.

4.4. Üzv təşkilatlar kommunikasiya üçün müvafiq e-mail ünvanını Əlaqələndiriciyə təqdim etməli, işlək vəzyiyyətdə olmasına nəzarət etməli və dəyişdiyi halda 3 (üç) gündən gec olmayaraq Əlaqələndiricini yazılı şəkildə məlumatlandırmalıdırlar.

4.5. Milli Platformanın əlaqələndiricisi hər il Platforma üzvlərinin fəallığı (kommunikasiyanın vəziyyəti, tədbirlərdə iştirakçılıq, Platforma adından sənədlərin qəbulu, layihələrdə iştirakçılıq, Etik Davranış Qaydalarına əməl edilməsi, Platformanın fəaliyyəti ilə əlaqədar təkliflər verilməsi, Platformanın fəaliyyəti ilə əlaqədar hər hansı müzakirələrdə iştirak, İşçi Qruplarda fəaliyyət və Platformanın fəaliyyəti ilə əlaqədar hər hansı digər fəaliyyət) səviyyəsini təhlil

edir, ümumi hesabat hazırlayır və yayır. Paltformanın fəal üzvlük siyasətini dstəkləməyən üzv təşkilatlar barədə müvafiq profilaktik və zərurət yarandığı halda intizam tədbirlərinin görülməsi üçün İdarə Heyəti və Ümumi Yığıncağa təqdimat verir.

4.6. Üzv təşkilatlara münasibətdə yalnız Nizamnamə və bu sənədlə nəzərdə tutulan məhdudiyyətlər tətbiq edilə bilər. Milli Platforma üzvlərinin Platformada fəaliyyəti ilə bağlı hər hansı müdaxilə yolverilməzdir. Bu cür hallar aşkarlandıqda Milli Platformanın müvafiq orqanları dərhal, təxirəsalınmaz, təsirli tədbirlər görürlər.

**5. Milli Platforma üzvlərinin hüquqları:**

5.1. Milli Platformanın və Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu rəhbər orqanlarına seçmək və seçilmək;

5.2. Milli Platformanın siyasətinin müəyyən olunmasında, onun fəaliyyətinə aid məsələlərin müzakirəsində sərbəst iştirak etmək;

5.3.Milli Platforma tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmək;

5.4. Milli Platformanın müdafiəsindən istifadə etmək;

5.5.- Milli Platformanın fəaliyyətində və onun orqanlarının bütün əməli fəaliyyətinə aid məsələləri sərbəst müzakirə və tənqid etmək;

5.6.Qərar qəbul olunana qədər və olunduqdan sonra öz fikrini açıq bildirmək;

5.7.Zəruri hallarda Milli Platformanın bütün sənədləri, o cümlədən, maliyyə sənədləri ilə tanış olmaq;

5.8.Milli Platforma üzvlüyündən çıxmaq;

5.9.Milli Platformanın Nizamnaməsi, Etik Davranış Kodeksi, Üzvlük Siyasəti və digər daxili sənədlərin tələblərinə əməl etmək;

**6. Milli Platforma üzvlərinin vəzifələri**

6.1. Özünün əməli fəaliyyəti ilə Milli Platformanın siyasətinin həyata keçirilməsinə kömək etmək;

6.2.Milli Platformanın əsas prinsiplərinə əməl etmək;

6.3.Milli Platformanın Nizamnamə, Etik Davranış Kodeksinə, Üzvlük Siyasəti və digər daxili sənədlərin müddəalarına riayət etmək və onun təşkilati prinsiplərinə uyğun fəaliyyət göstərmək;

6.4.Milli Platformanın işində fəal iştirak etmək;

6.5. Milli Platformanın nüfuzu qayğısına qalmaq, onun bölüşdüyü dəyərləri, ideyaları təbliğ etmək.

Milli Platformanın Nizamnamə, Etik Davranış Kodeksinə, Üzvlük Siyasəti və digər daxili sənədlərin müddəalarına riayət etmək öhədiliyini daşıyırlar.

6.6.Milli Platformanın Nizamnaməsini, Etik Davranış Qaydalarını pozan üzvlər barəsində, pozuntunun xarakterinə uyğun olaraq, «xəbərdarlıq», «töhmət», və «Milli Platformanın üzvlüyündən xaric etmə» kimi intizam tədbirləri görülür. İntizam tədbiri Milli Platformanın Nəzarət Təftiş Qrupu tərəfindən tətbiq edilir.

6.7. Milli Platformanın üzvü barədə tətbiq edilən intizam tədbirlərindən qanunvericiliyə müvafiq olaraq şikayət verilə bilər.

**7. Milli Platforma üzvlüyünə aşğaıdakı hallarda xitam verilir:**

7.1. Milli Platformanın fəaliyyətinə xitam verildikdə;

7.2. Milli Platforma üzvlüyündən könüllü çıxdıqda;

7.3. Milli Platformanın üzvlüyündən çıxarıldıqda.

7.4. Milli Platforma üzvü Milli Platformadan könüllü çıxdıqda Milli Platformanın İdarə Heyətinə bu barədə yazılı ərizə ilə müraciət edir. Ərizəyə İdarə Heyətində baxılır və müvafiq qərar qəbul edilir.

7.5. Milli Platformanın Ümumi Yığıncağında üzürsüz səbəb olmadan ardıcıl iki dəfə iştirak etmədikdə;